

# Mehriban Əliyeva Azərbaycan xalqını təbrik etdi

*Birinci vitse-prezident Mehriban Əliyeva Ağdam rayonunun işğaldan azad olunması ilə bağlı "Instagram" hesabında paylaşım edib. Unikal.org xəbər verir ki, paylaşımda deyilir: "Əziz həmvətənlər, Sizi Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm və hər birinizə ən xoş arzularımı çatdırıram! Qoy Azərbaycanda daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün!*

Səh.2


# UNIKAL

№39 (2034) 21 noyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# İlham Əliyevdən Ermənistana xəbərdarlıq

## Prezident: "Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, 10 qatını alacaqlar" - İlham Əliyev

*Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ağdam rayonunun işğaldan azad olunması münasibətilə xalqa müraciətində Ermənistana xəbərdarlıq edib. "Unikal" qəzeti xəbər verir ki, ölkə başçısı qeyd edib ki, erməni tərəfi təxribatçı və işğalçılıq siyasətindən əl çəkməsə, cavab sərt olacaq: "Biz mülki əhaliyə qarşı vuruşmamışıq. Onlar mülki əhaliyə qarşı vuruşublar. Bizim mülki vətəndaşlar arasında 94 şəhidimiz var, 400-dən çox yaralı mülki şəxs var, 3000-dən çox evimiz dağıdılıb. Onlarda mülki şəxslər arasında itkilər qat-qat aşağıdır. Amma onlar bizim mülki əhalini məqsədyönlü şəkildə vururdular. Gəncəni ballistik raketlərlə vurmuşdular. Kasetli bombalarla Bərdəni vurmuşdular, fosforlu bombalarla.*

Səh.2

Səh.2



# Məğlub ölkənin yarıtmaz nazirləri Paşinyana qarşı birləşir

## "Rusiya bu regionda həlledici oyunçulardan biridir"



*Vətən Savaşının Azərbaycanın qələbəsi ilə nəticələnməsi artıq bütün dünya tərəfindən qəbul olunmaqdadır. Rusiyanın təşəbbüsü ilə imzalanan sülh bəyanatına əsasən Azərbaycanın işğal altında olan torpaqları boşaldılır və öncə ordumuz, daha sonra əhali doğma torpaqlarına qayıdır. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə...*

Səh.4

## Fazil Məmmədov üçün "ilahi ədalət", yoxsa taleyin ironiyası...



*Bir müddət öncə mətbuatda məlumat yayıldı ki, 2010-cu ildə dövlət qeydiyyatına alınan və son illərə kimi Azərbaycanın ən böyük holdinqlərindən biri sayılan "Synergy Group"un və bu holdinqə daxil olan şirkətlərin dövlət büdcəsinə böyük həcmdə vergi borcları var.*

Səh.6

## Vətən Müharibəsi Dağlıq Qarabağ həqiqətlərini dünyaya sərgilədi



*Azərbaycan şanlı qələbəsini qeyd edir. Bu gün Azərbaycanın işğal altında olan daha böyük bir şəhəri, Ağdam işğaldan azad edildi. Torpaqlarımızın bütövləşməsinə demək olar ki, sayılı günlər qalıb. Ermənistan rəhbərliyi tərəfindən təslimçilik aktının imzalanması bütün dünyada Azərbaycanın qələbəsi kimi qiymətləndirilir.*

Səh.15

# “Ağdam bizim üçün Məkkədir, qibləgahdır” - Mənsum İbrahimov



***“Ağdam məscidində azan oxuyacağam. Oranın hər qarışı bizim üçün Məkkədir, qibləgahdır”. Bunu Xalq artisti Mənsum İbrahimov deyib. Tanınmış xanəndə bildirib ki, doğma rayonu Ağdamın azad olunması ilə 27 illik həsrətə son qoyuldu.***

“Sevincimizin həddi yoxdur. 27 ildir ki, həsrətini çəkdiyim, səsimi qazandığım o torpağa qovuşuram. Orada doğulmuşam, böyümüşəm, canım, qanım ilə Ağdamın zərrəsiyəm. Əlbəttə ki, böyük bir qələbədir. Düşmən üzərində elə zəfər çalmışıq ki, dünyada tayı-bərabəri yoxdur. Azərbaycanın Ali baş Komandanının rəhbərliyi ilə müzəffər Ordumuz hərb tarixində sözün əsl mənasında bir dastan yazdı. Özümüz öz gücümüzə torpaqlarımızı mənfur düşməndən azad etdik. Xalqımızı, Ali Baş Komandanımızı təbrik edirəm, gözümüz aydın olsun. Ordumuz, şəhidlərimiz qarşısında baş əyirəm. Mənim ailəmdə iki şəhid oldu. Qardaşımın oğlu və xalamın nəvəsi Qarabağ uğrunda gedən döyüşlərdə şəhid oldular. Onların ruhu bu gün çox şaddır. Ağdam məscidində azan oxuyacağam. Oranın hər qarışı bir məkkədir, qibləgahdır. Parkında gəzəcəyəm, çay evində oturacağam. Havası, suyu, hər şeyi üçün burnumun ucu göynəyir”, - deyə Xalq artisti vurğulayıb.

# “Mənim üçün o nağıl bitdi" - Murad Arif

***”Sumqayıtda atamın kinoteatrı var idi. Klub direktoruydu. Hündür tavanlar, nəhəng dəhliz, pilləkənlər, bir otaq boyda çılçıraqlar, kino zalı... Atamla kluba getmək ən gözəl əyləncəm idi... 1990-ların əvvəlində kluba köçkünlər məskunlaşdı, atam da təqaüdə çıxdı, o nağıl bitdi”.***



Bu sözləri müğənni-bəstəkar Murad Arif tvitter hesabında yazıb. Sənətçi düşməndən azad olunan Ağdamla bağlı xatirələrini bölüşüb: ”Üstündən 30 ilə yaxın vaxt keçib. Atam rəhmətə gedəndən sonra maşınımı o məhəlləyə, kinoteatrın həyətinə sürdüm. Bəlkə hansısa xatirəm oyanar, o günlərə qayıdaram. Olmadı... O memarlıqdan, o əzəmətli binadan heç nə qalmayıb. İçərisi otaqlara bölünüb, pəncərələr hörülüb... Uşaqlığımın sarayı, tamaşaçılarla var-gəl edən mədəniyyət ocağı, daxmaya dönmüşdü. Adam o məqamda anlamasa da, nədənsə inciyir. Sanki məkan, həmin yer səndən üz döndərib... İndi Ağdamda da eyni halı yenidən yaşayacağam. Eyni görüş həyəcanı, eyni viranəlik, eyni tale...”.



# Qarabağda döyüşən aktyor Emil Musayev: Hər şeyi ikinci plana atdıq...

***Döyüşlərin ilk günündən cəbhədə olan aktyor Emil Musayev BAKU.TV-yə danışıb.***

“Unikal” bildirir ki, tanınmış aktyor döyüşlərdə iştirakını çoxlarının təəccüblə qarşıladığını söyləyib.

Onun sözlərinə görə, Vətəni qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur: ”Vəzifəsindən asılı olmayaraq hər birimiz buradayıq. Cəbhədə olmaq çətin idi. Yaş etibarı ilə, fiziki quruluş etibarı ilə çətin idi. Vətən müharibəsi idi. Ona görə də hər şeyi ikinci plana atdıq. Bütün Azərbaycan xalqını belə bir qələbə münasibəti ilə təbrik edirəm. Şəhidlərə Allahdan rəhmət, yaralılara cansağlığı arzu edirəm”.



# Manaf Ağayev və həyat yoldaşı koronavirusa yoluxdu

***Müğənni Manaf Ağayev və həyat yoldaşı koronavirusa yoluxub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, müğənni və həyat yoldaşı Fərqanə Ağayevada COVİD-19 aşkarlanıb. Onların hər ikisi Yeni Klinikaya yerləşdirilib.

M.Ağayev açıqlamasında faktı təsdiqləyib: ”Təcili Tibbi Yardım stansiyasının əməkdaşları bizi Yeni Klinikaya yerləşdirdilər. Hazırda mənim və həyat yoldaşımın vəziyyəti normaldır. Bir neçə gün sonra evə buraxılacağıq.”

# "Biz bu günlərin həsrətini çəkmişik" - Elnarə

***”Mən də qələbə günü maşınla küçələrdə idim. Xalqın içində qələbəni qeyd edirdim. Bu sevinci yaşayan bilər. Xalqımız bildi ki, sevinc, qələbə nədir”.***



Bu sözləri Əməkdar artist Elnarə Abdullayeva ”Birinci studiya”da qonaq olarkən deyib. Vətən müharibəsindən, qələbədən danışan xanəndə bunları əlavə edib: ”Xalq o qədər bu günlərin həsrətində olub ki... Biz Qarabağ eşqi ilə yaşadıq... Hər soruşanda deyirdik ki, Qarabağda konsert verək, veriliş çəkək. Allah bizi nə qədər çox istəyirmiş. Bu gözəl günləri bizə yaşatdı. O günlərə gəlib çıxdıq. Mənə hər zamand eyirdilər ki, sən axı Qarabağdan deyilsən... Vətənin o başı, bu başı olmur. Hamımızın torpağıdır Qarabağ”.

# "Dədələrimizin məzarını ziyarət edəcəyik" - Günel



***Müğənni günel Zeynalova Ağdamın düşməndən azad edilməsi ilə bağlı paylaşım edib.***

Əslən Ağdamdan olan sənətçi bunları qeyd edib: ”Gözümüz çox aydın olsun. Qarabağın gözü, gözəllik guşəsi. 30 illik həsrət sona çatdı. Baba yurdum artıq azadsan, bizim idin, indi də bizim oldun. İlk əvvəl atam Rəhman Zeynalovun, anam Zöhrə, gözünüz aydın. Dədələrimizin məzarlarını gedib ziyarət edib, dualarımızı oxuyacağıq. Çox şükür... Bütün ağdamlılar, gözümüz aydın”.

## DİN vətəndaşları karantin rejiminə əməl etməyə çağırdı

***Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb.***

DİN-in Mətbuat xidmətindən Unikal.org-a daxil olan məlumatda deyilir: "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Ağdam rayonunun düşmən işğalından tamamilə azad edilməsi münasibətilə hər bir vətəndaşımızı ürəkdən təbrik edirik!

Bununla yanaşı, xatırlatmaq istəyirik ki, Nazirlər Kabinetinin 2020-ci il 19 noyabr tarixli Qərarı ilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb. Odur ki, vətəndaşlarımızdan xüsusi karantin rejiminin tələblərini pozmamağı, o cümlədən sosial məsafəni gözləmələrini və tənəffüs yollarını qoruyan tibbi maskalardan mütləq qaydada istifadə etmələrini xahiş edirik. Bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir. Səbrli və anlayışlı vətəndaşlarımıza əvvəlcədən təşəkkür edirik".

***Famil***

## Xankəndində qurumlararası humanitar mərkəz fəaliyyətə başladı

***Xankəndindəki Qurumlararası Humanitar Yardım Mərkəzi tam şəkildə fəaliyyətə başlayıb.***

Unikal.org "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə Rusiya Milli Müdafiə İdarəetmə Mərkəzinin rəhbəri general-polkovnik Mixail Mizintsev bildirib.

Mərkəzin əsas vəzifələri daimi yaşayış yerlərini tərk etmiş vətəndaşların geri qaytarılması, mülki infrastrukturun bərpasına kömək və əhalinin normal həyatı üçün şəraitin yaradılması, Rusiya dövlət orqanlarının və təşkilatlarının hərbi əməliyyatların aparıldığı ərazilərin sakinlərinə humanitar yardım göstərilməsi üçün fəaliyyətlərinin koordinasiyasıdır.

Mərkəz həmçinin Azərbaycan və Ermənistanın dövlət qurumlarına beynəlxalq humanitar təşkilatlarla qarşılıqlı əlaqələrin təşkilində yardım edəcək.

"Mərkəzin əsası digər federal icra orqanlarının cəlb edilməsi ilə Müdafiə Nazirliyinin bölmələrindən ibarətdir", - Mizintsev deyib.

Noyabrın 19-da Qarabağda humanitar məsələlərin həlli üçün daha 5 mərkəz yaradıldığı elan edilib.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzalayıblar. Bəyanata əsasən, noyabrın 10-dan Dağlıq Qarabağda tam atəşkəs qüvvəyə minib.

Atəşkəsə və hərbi əməliyyatlara nəzarət etmək üçün Dağlıq Qarabağ münaqişəsi zonasında 1 960 hərbçi, 90 zirehli transportyor, 380 ədəd avtomobil və xüsusi texnika miqdarında Rusiyanın sülhməramlı kontingenti yerləşdirilir.

## Şuşada Azərbaycan və Rusiyanın yüksək rütbəli şəxsləri görüşdü

***Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi (FHN) Mülki müdafiə qoşunlarının komandanı İlham Abdullayev 20 noyabr 2020-ci il tarixində Şuşa şəhərində Rusiya Federasiyası Fövqəladə Hallar Nazirliyi Beynəlxalq fəaliyyət departamentinin rəisi Vladimir Solovyovla görüşüb.***

Fövqəladə Hallar Nazirliyindən "Unikal"a verilən məlumata görə, görüşdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində humanitar məsələlər, o cümlədən elektrik enerjisi, qaz təchizatı və rabitə xətlərinin bərpası məsələləri müzakirə edilib.

Tərəflər əməkdaşlığın davam etdirilməsi məqsədilə mütəmadi əlaqə saxlanılması barədə razılığa gəliblər.

# Məmurların rüşvət və korrupsiya utancı...

### Bundan sonra da kimlərsə yeyinti ilə, mənimsəmə ilə məşğul olacaqlarsa, ilk növbədə Vətən müharibəsindəki Böyük Qələbəmizdən utanmalıdırlar

***İşğal olunmuş torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatdı. Düşmən bütün cəbhələrdə sarsıdıcı məğlubiyyətə uğradıldı və təslim oldu. 30 ilə yaxındır erməni caynağında olan yurdlarımızda indi üçrəngli bayrağımız dalğalanır.***



Bu tarixi qələbə eyni zamanda Ali Baş Komandanın ətrafında sıx birləşən xalqımızın həmrəyliyi nəticəsində mümkün oldu. Bütün şəxsi maraqlar bir kənara qoyuldu. Hər kəs yalnız Böyük Zəfər üçün çalışdı və bəhrəsini gördük. Artıq Qarabağ Azərbaycandır!

Dövlət başçısının da dediyi kimi, qələbəmizin memarı zabit və əsgərlərdir. Canını vətən yolunda fəda edən qeyrətli, qəhrəman övladlarımız, sağlamlığını itirən cəsur oğul və qızlarımızın sayəsində sözün həqiq mənasında TARİX YAZDIQ!

İndi ölkəmizin həyatında yeni bir mərhələ başlayır. Bu mərhələdə erməni faşistləri tərəfindən dağıdılmış, talan edilmiş şəhərlərimizin, kəndlərimizin bərpası önəmli yer tutur. Dövlət rəhbərinin dünən xalqa müraciətində vurğuladığı kimi, quruculuq prosesi başlayıb. Həmin prosesə töhfə vermək, əlimizdən gəldiyi qədər kömək etmək hər birimizin vətəndaşlıq borcu, vətəndaşlıq missiyasıdır.

Şübhəsiz, Azərbaycan dövlətinin hər cür imkanı var ki, Qarabağda dinc quruculuq və abadlıq işlərini ən qısa zamanda və yüksək səviyyədə başa çatdırsın.

Lakin unutmayaq ki, el bir olsa dağ oynadar yerindən!

Vətən müharibəsində olduğu kimi, Qarabağdakı quruculuq-abadlıq prosesində də birlik və bərabərliyimiz önəmlidir. Yenə də hər birimiz yüksək mənəvi dəyərlərdən çıxış etməliyik. Bunlardan biri də cəmiyyətdə dərin kök salmış rüşvət və korrupsiya kimi meyllərin tamamilə aradan qalxmasıdır. Əldə edilən şanlı zəfərdən sonra hələ də müəyyən məmurlar öz əvvəlki zərərli vərdişlərinə davam edəcəklərsə, büdcə vəsaitlərinə yeyinti mənbəyi kimi baxacaqlarsa, əllərini vətəndaşın cibindən çəkməyəcəklərsə, bu artıq vətənə, dövlətə, bayrağa, Qarabağa xəyanət kimi dəyərləndirilməlidir.

Bundan sonra kimlərsədə yenə də mənimsəmə ilə, rüşvətxorluqla məşğul olacaqlarsa, o zaman öncə canını torpağa fəda edən şəhidlərin müqəddəs ruhundan, əziz xatirəsindən, sağlamlıqlarını itirən qazilərin fədakarlığından, əzmindən utanmalıdırlar. Övladlarını vətənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda qurban verən ataların, anaların göz yaşından utanmalıdırlar. Özünün ehtiyacı olduğu halda son qəpiyini belə Silahlı Qüvvələrə Yardım Fonduna keçirən sadə insanların ləyaqətindən, genişürəkliliyindən, vətən, bayraq, millət, Qarabağ sevgisindən utanmalıdırlar.

Əslə və əsla unutmamalıdırlar ki, bu indi yalnız qanunvericiliklə qadağan edilmiş əməl - cinayət deyil. Bu həm də qarşıda görüləcək nəhəng abadlıq, bərpa-quruculuq işlərinə əngəl olmaq, bir sözlə, mənəvi məsuliyyətsizlikdir. Yuxarıda da vurğuladığımız kimi, vətənə, Böyük Zəfərə, Qarabağa xəyanətin başqa bir adı, başqa bir formasıdır. Bir sözlə, artıq leksikonumuzdan rüşvət, korrupsiya kimi sözləri biryolluq çıxarmağın vaxtıdır.

Dövlət vəsaitinin, az qala, hər qəpiyinin dəyəri bilinməli, yeyinti, mənimsəmə anlayışı, filoloji terminologiya ilə desək, arxaizmə çevrilməlidir. Böyük Zəfərin qazanıldığı bir ölkədə artıq çirkin əməllərə, kirli işlərə yer olmamalı, şəxsi mənafe qəti şəkildə ümummilli maraqların önünə keçməməlidir.

Bu ali həqiqəti dərk və qəbul etməyənlər isə özlərindən küsməlidirlər. Çünki dövlətin də, cəmiyyətin də bələlərinə qarşı bundan sonra daha amansız, daha güzəştsiz, daha sərt olacağına kimsənin zərrə qədər şübhəsi yoxdur!

***Sənan Mirzə***

# Azərbaycanda bu şəxslərə də şəhid statusu verildi

***Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 1.2.4-cü yarımbəndinə əsasən, yalnız Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar şəhid hesab edilirlər.***




Unikal.org-a daxil olan məlumata görə, 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini müxtəlif silahlardan atəşə tutması ilə yanaşı təmas xəttindən aralıda yerləşən Naftalan və Gəncə şəhərlərində dinc əhaliyə qarşı hərbi təxribat törətmiş və Qarabağdan kənarda yerləşən bu yaşayış məntəqələrində onlarla mülki vətəndaş həlak olmuş, yüzlərlə vətəndaş isə yaralanıb.

Respublikada yaranmış mövcud vəziyyətlə əlaqədar sözügedən ərazilərdə həlak olmuş mülki vətəndaşların şəhid hesab edilməsi məqsədilə müvafiq qanunvericiliyə dəyişiklik edilməsi zərurəti yaranıb.

Qərarda Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar, habelə ölkənin digər ərazilərində erməni hərbi təxribatı (hücumu, zərbəsi) nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşların şəhid hesab edilməsi əks olunub.

# Rusiya ikibaşlı oynayır, yoxsa...

## Politoloqlar hesab edirlər ki, ortada olan ciddi problemimizi hansısa dövlətləri qarşıdurma vəziyyətinə gətirməklə həll edə bilmərik

***Məlum olduğu kimi, Vətən Müharibəsinin qələbə ilə bitməsini özündə ehtiva edən razılıq bəyanatı ilə bağlı fərqli mövqelər ifadə olunmaqdadır. Xüsusən də Rusiyanın məsələyə müdaxiləsi, sülhməramlı qüvvələrin Qarabağa yerləşdirilməsi cəmiyyətin bəzi kəsimi tərəfindən birmənalı qarşılanmır.***

Bundan əlavə, Rusiya Prezidenti Vladimir Putinin Qarabağla bağlı fikirləri gündəmin əsas müzakirə mövzusudur. Ekspertlər Putinin söylədiklərini birmənalı qarşılamır. Onların fikrincə, Rusiya Prezidentinin fikirlərində Azərbaycanın maraqlarına uyğun məqamlarla yanaşı, Bakını qane etməyən mesajlar da var.

Məsələ ilə bağlı "Unikal" qəzetinə açıqlama verən Ədalət Partiyasının sədr müavini, politoloq Mütəllim Rəhimli deyib ki, Rusiya Qafqazda marağını heç vaxt gizlətməyib. Onun fikrincə, regionun böyük və nüfuzlu dövləti kimi proseslərə aktiv müdaxilə edir və görünür ki, onun iradəsini nəzərə almamaq mümkün deyil:"Hətta Rusiyanın təsiri o qədər çoxdur ki, indi hansısa ölkə onunla açıq qarşıdurmadan çəkinir. Bu onun hərbi potensialı, aqressiv davranışı və ərazisinin geosiyasi əhəmiyyəti və iqtisadi resursları və s. ilə bağlıdır. Putin son müsahibəsində vəziyyəti ətraflı təhlil etdi, bir çox məsələlərlə bağlı həqiqətləri söylədi. Həm Azərbaycana, həm də Ermənistana mesajlar verdi. Müsahibədə ədalətdən çox balans məsələsinin gözlənildiyini müşahidə etmək olurdu. Bu da Rusiyanın Ermənistana özünün geostrateji müttəfiqi kimi baxmasından qaynaqlanır.

Qonşularla yaxşı olmayan münasibət ölkəyə daim gərginlik yaşadar, problemlər yaradar. Ona görə də maksimum çalışılmalıdır ki, Rusiya ilə normal münasibətlərimiz olsun. Bunun üçün xarici siyasətdə yeni konsepsiyaya, yeni baxışa ehtiyac var. Xarici siyasətimiz itaətkarlıq, yaxud da qəzəb və kin üzərində qurulmamalıdır. Rusiya ilə münasibətlərdə, kiminsə nə deməyindən asılı olmayaraq xoş ovqatı saxlamalıyıq. Yoxsa bu bizə baha başa gələr bilər.

Rusiya niyyətini gizlətmir və bunu dəfələrlə ən müxtəlif formalarda ifadə edib. Deyir ki, əgər siz tabe olaraq yaşamaq istəyirsinizsə, bunu mənə etməlisiniz, Qərbi və ABŞ-ı regiona gətirməməlisiniz. Əks halda çox ciddi şəkildə cəzalanacaqsınız. Ona görə də, Rusiya öz ordusunu, hansı ad altında olmasından asılı olmayaraq, Qarabağa yerləşdirdi. Gəlin qəbul edək və etiraf etsək, bu bizi əlavə olaraq aşağılamaz - bir ölkədəki başqa dövlətin qoşunu var, bu müstəqilliyə təhdiddir. Məsələ bundadır ki, biz hazırda işğal altında olan ərazilərə rusların "şlaqbaum"unun altından keçməklə getmək məcburiyyətindəyik".

Politoloq onu da qeyd edib ki, ortada olan ciddi problemimizi hansısa dövlətləri qarşıdurma vəziyyətinə gətirməklə həll edə bilmərik. Onun qənaətincə, bununla Azərbaycanda Əfqanıstan, İraq, Suriya və s. bu kimi ssenariləri hazırlamış oluruq. İndi sərіştəli diplomatiyanın işləməsi və uğur qazanması üçün geniş meydan var və bu fürsəti qaçırmamalıyıq.

Türkiyənin bizim strateji müttəfiqimiz olduğunu xatırladan M.Rəhimli onu da qeyd edib ki, ona etibar edə bilərik və xalqımız ona inanır:"Bununla belə bizim özümüzün Rusiyadan həddən artıq asılılığımız Türkiyənin manevr imkanlarını azaldır. Biz, Manaf Süleymanlının "Eşitdiklərim, gördüklərim,oxuduqlarım" əsərində təsvir olunmuş Bakı qoçularına bənzəməməliyik. Gizlində asıb-kəsən, üz-üzə gələndə baş əyib, itaət edən, ayaqlarına düşüb yalvaran "qəhrəmanlıq" kimə lazımdır! Xalqa həqiqəti söyləmək daha yaxşı olar. Qarabağ cəbhəsində, sözsüz ki, böyük uğurlarımız var. Lakin bundan sonra necə olacaq sualı hamını narahat edir. Xalqımız bu sahədə Türkiyəyə bel bağlayır və Türk ordusunun ölkəmizə gəlişini Qarabağın azad edilmə prosesinin davamı kimi qiymətləndirir".

Politoloq Elxan Şahinoğlu isə bizimlə söhbətində bildirib ki, Rusiya hakimiyyəti ikili oynayır. Bir tərəfdən Kreml sahibi Vladimir Putin deyib ki, Dağlıq Qarabağın statusunun müzakirəsində digər iki həmsədr ABŞ və Fransanın fəallığının artmasını arzulayır və bu əməkdaşlıqdan razıdır, digər tərəfdən Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin Qarabağ münaqişəsi ilə bağlı Qərb ölkələrini bu sözlərlə ittiham edib: "Qərb Qarabağ razılaşmasını pozmaq üçün erməni və azərbaycanlı millətçiləri qızışdırır. ABŞ və müttəfiqləri erməni və Azərbaycan xalqları arasında nifaq salmağa çalışır". Narışkinin digər fikri də maraqlıdır: "Qərb ölkələrinin rəsmiləri ermənilərə deyirlər ki, "sona qədər müharibəni aparmalı idiniz" azərbaycanlılara isə əksinə bildirirlər ki, "Kreml sizin qələbənizi oğurladı, Stepanakertin bir addımlığındaydız".



Politoloq xatırladıb ki, Putinin Qarabağla bağlı Amerika və Fransaya etirazı yoxdur, Narışkin isə hər iki dövlətə qarşı ciddi ittihamlar irəli sürür:"Görünür, Putin özünü daha dözümlü göstərməyə çalışır və demək istəyir ki, Vaşinqton və Parisin Rusiyaya qarşı müxtəlif sanksiyalarına baxmayaraq Dağlıq Qarabağın statusunun müəyyənləşməsində onlarla əməkdaşlıq etməyə hazırdır. Putin üçün əsas sülhməramlılarını Azərbaycanda yerləşdirmək idi, ona da nail oldu. Putinin Dağlıq Qarabağın status məsələsini Amerika və Fransa ilə birgə müzakirə etməyə hazır olması isə onun Türkiyəni bu iki dövlət vasitəsilə bölgədəki fəallığını azaltmaq məqsədi daşıyır. Yəni Putin Türkiyəyə qarşı özünün edə bilmədiyini başqalarının əli ilə həyata keçirməyə çalışır. Buna baxmayaraq, Putin Vaşinqton və Parisin təxribatlarını ölkəsinin baş kəşfiyyatçısı Narışkinin dili ilə səsləndirir. Bu dəfə isə Putin Narışkinin açıqlaması vasitəsilə Vaşinqton və Parisi Rusiyaya qarşı "pis əməllərdən" çəkindirməyə çalışır.İkinci sual: Narışkinin "Qərb ölkələrinin rəsmiləri azərbaycanlılara deyirlər ki, "Kreml sizin qələbənizi oğurladı, Stepanakertin bir addımlığındaydız" ifadəsi nə dərəcədə həqiqətə uyğundur?Ermənistan hakimiyyətinin Fransaya bağlılığı məlumdur, Amerika ilə də sıx əlaqələr qurmağa çalışıblar. Yəni Vaşinqton və ya Paris Paşinyanı qızışdıra bilər. Ancaq Vaşinqton və Paris rəsmi Bakını niyə qıcıqlandırsın ki? Tam əksinə Vaşinqton və Paris müharibənin ilk günündən bizə mane olmağa çalışırdılar, indi də Azərbaycana qarşı təxribatlarından əl çəkməyiblər. Ona görə də Qərb ölkələrinin rəsmilərinin bizə "sona qədər getməli idiniz" deməsi inandırıcı deyil. Narışkin sadəcə həmişəki kimi Ermənistanla Azərbaycan arasında balans yaratmağa çalışıb, yəni Qərb ölkələri həm erməni, həm də guya azərbaycanlı millətçilərə müraciət ediblər".

***Z.Məmmədli***

# İslam Əməkdaşlıq Təşkilatı GF-nin prezidenti Azərbaycanda

***Gənclər və İdman Nazirliyinin dəstəyi ilə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun prezidenti Taha Ayhanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər edib.***

Nazirliyin mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, səfər çərçivəsində qonaqlar Gənclər və İdman Nazirinin müavinləri İntiqam Babayev və Fərhad Hacıyev ilə görüşüblər. Görüş əsnasında əməkdaşlıq perspektivlərinin genişləndirilməsi və yeni birgə layihələr haqda fikir mübadiləsi aparılıb. Gənclər və İdman Nazirliyinin rəsmiləri Azərbaycanın tarixi zəfər qazandığı bir dövrdə bu səfərin baş tutduğu üçün məmnunluqlarını ifadə edərək, tərəflər arasında əməkdaşlığın daha da artırılmasının vacibliyini və Azərbaycanın hər zaman olduğu kimi Forumun fəaliyyətlərinə dəstək göstərəciyini vurğulayıblar.

Bununla yanaşı, səfərdə olan nümayəndə heyəti Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov, Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, millət vəkili Tural Gəncəliyev,Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının ofisində gənclər təşkilatlarının nümayəndələri ilə görüş keçirib, qarşılıqlı əməkdaşlıq və gələcək planlar ətrafında fikir mübadiləsi aparıblar.

18 noyabr tarixində Taha Ayhan və onu müşaiyət edən nümayəndə heyəti Gəncə şəhərinə səfər edərək Ermənistan silahlı qüvvələrinin azərbaycanlı dinc əhaliyə qarşı törətdiyi hərbi cinayətlər nəticəsində baş vermiş faciənin izləri ilə tanış olublar. Gəncə şəhəri icra hakimiyyətinin başçısı Niyazi Bayramov cinayətkar erməni ordusu tərəfindən atılan ballistik raketlərin dağıtdığı yaşayış ərazilərini qonaqlara göstərərək, dinc əhaliyə hücumlar zamanı baş vermiş itkilər və dağıntılar haqda ətraflı məlumat verib. Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin və erməni terroruna məruz qalmış müharibə qurbanlarının xatirəsi yad edilib.

Səfər haqda ətraflı müsahibə verən Taha Ayhan Azərbaycan həqiqətlərinin, həmçinin dinc əhaliyə qarşı Ermənistanın törətdiyi cinayətlərin geniş ictimaiyyətə çatdırılması üçün İƏT Gənclər Forumunun lazımi işlər görəcəyini və geniş fəaliyyət aparacağını bildirib.

***Zaurə Əmirova***